AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AZ 1122 Bakı şəhəri,
H. Zərdabi küç. 96

Tel.: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçtu: office@isim.az http://www.isim.az

"____" ________________ 2014-cü il    № ______________

**ƏMR № 325**

**Bakı şəhəri** **30 sentyabr 2014-cü il**

**"Uşaqların icbari dispanserizasiyasının əhəmiyyətinə dair maarifləndirmə materiallarının və televiziya verilişlərinin hazırlanması barədə"**

Səhiyyə Nazirliyinin 01.07.2014-cü il tarixli 60 nömrəli əmri ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planı"nın 5-ci bəndinin icrası məqsədi ilə

**ƏMR EDİRƏM**

1. Uşaqların icbari dispanserizasiyasının əhəmiyyəti və onun təşkili barədə maarifləndirməyə dair iki buklet, bir plakat, bir videoçarx və üç televiziya verilişi, ictimai yerlərdə, o cümlədən ASAN xidmət mərkəzlərində quraşdırılması nəzərdə tutulan xüsusi info-panellər hazırlansın.
2. Əmrin 1-ci bəndində göstərilən maarifləndirmə materialları və televiziya verilişlərinin hazırlanmasının təşkili Səhiyyə kommunikasiyası və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Aysel Hacıyevaya tapşırılsın.
3. Baş mühasib Abuzər Məmmədova qeyd olunan maarifləndirmə materialları və televiziya verilişlərinin 2014-cü ilin sonunadək hazırlanması üçün xərclərin smetasının tərtib edilməsi və vəsaitin smetaya uyğun olaraq İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsinin təmin edilməsi tapşırılsın.
4. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin Direktoru**
**cənab Ceyhun Məmmədova**

# MƏLUMAT

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 01.07.2014-cü il tarixli 60 nömrəli əmri ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planı"nın 5-ci bəndinə əsasən icbari dispanserizasiyasının əhəmiyyətinə dair maarifləndirmə materiallarının hazırlanması və yayılması Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinə həvalə edilib.

Bu məqsədlə 2014-cü ilin sonunadək uşaqların icbari dispanserizasiyasının əhəmiyyəti və onun təşkili barəsində maarifləndirmə buklet (2 növ) və plakatının hazırlanması və çapı, həmçinin icbari dispanserizasiyaya həsr edilmiş videoçarxın və üç televiziya verilişinin hazırlanması və yayımlanması, ictimai yerlərdə, o cümlədən ASAN xidmət mərkəzlərində quraşdırılması nəzərdə tutulan xüsusi info-panellərin hazırlanması məqsədəuyğun hesab edilir. Həmin maarifləndirici və təşviqat xarakterli materialların paylanması orta ümumtəhsil məktəbləri və digər ictimai yerlərdə İSİM tərəfindən aparılması nəzərdə tutulan maarifləndirmə, monitorinq və qiymətləndirmə fəaliyyətləri zamanı təklif olunur.

Əlavədə göstərilən həmin materialların hazırlanması məqsədi ilə müvafiq göstəriş verməyinizi Sizdən xahiş edirəm.

**Səhiyyə kommunikasiyası və ictimaiyyətlə**
**əlaqələr şöbəsinin müdiri** **Aysel Hacıyeva**

**26.09.2014**

**Uşaqların icbari dispanserizasiyanın əhəmiyyətinə dair maarifləndirmə materiallar**

| | Fəaliyyət | Gözlənilən nəticələr | Tarixlər |
|---|---|---|---|
| 1 | Dispanserizasiyanın əhəmiyyəti və onun təşkilinə dair çap materiallarının hazırlanması | Dispanserizasiya və onun əhəmiyyətinə dair 2 növ (həkimlər üçün və geniş əhali üçün) buklet hazırlanacaq və 10.000 nüsxədə çap edilib paylanacaqdır.<br><br>Dispanserizasiyanı izah edən 1 növ plakat hazırlanacaq və 5.000 nüsxə çap edilib paylanacaqdır. | oktyabr-noyabr<br><br>oktyabr-noyabr |
| 2 | Geniş əhali arasında dispanserizasiyanın əhəmiyyəti və prosesin təşkilinə dair maarifləndirmə işinin aparılması üçün videoçarx və info panellərin hazırlanması | Dispanserizasiya və onun əhəmiyyətinə dair 1 növ (geniş əhali üçün) 30-40 saniyəlik videoçarx hazırlanacaq və tədbirlər, görüşlər zamanı, habelə regional TV-lar və internet TV-lər vasitəsilə yayımlanacaq və sosial şəbəkələrdə paylanacaqdır.<br><br>Dispanserizasiyaya dair 10 ədəd böyük ölçülü kartonlu stend hazırlanacaq və ASAN xidmət mərkəzlərində və/və ya digər ictimai yerlərdə, 28 Mall və Park Bulvar AVM-də quraşdırılacaqdır. | oktyabr-dekabr<br><br>oktyabr-dekabr |
| 3 | Televiziya kanallarında dispanserizasiyaya dair verilişlərin hazırlanması və efirə verilməsi | Dispanserizasiyanın təbliği və əhalinin məlumatlandırılması üçün 45-60 dəqiqəlik üç veriliş efirə veriləcək. | noyabr-dekabr |